*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 21-27*
https://doi.org/10.62837/2024.3.21

**CƏMİL ŞAMİL OĞLU QULİYEV**
**Tarix üzrə fəlsəfə doktoru**
**AMEA–nın Lənkəran Regional Elmi Mərkəzi**
**qcamil@mail.ru**
**ORCİD:https://orcid.org/0009–0006–8736–0667**

# AZƏRBAYCANDA İSLAM DİNİNİN YAYILMASI VƏ AZƏRBAYCAN DİLİNƏ TƏSİRİ

**Xülasə**

Azərbaycan xalqının mənəviyyatını, həyat tərzini islam dəyərləri olmadan təsəvvür etmək çətindir. İslam dininin ölkəmizin müqəddəratında, xalqımızın taleyində müstəsna, birləşdirici və mütərəqqi rol oynaması danılmaz tarixi həqiqətdir. Xalqımızın genetik yaddaşında dərin iz qoymuş islam azərbaycanlıların vahid xalq kimi təşəkkül tapmasına, onların milli kimliyinin, dövlətçilik ənənəsinin, mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir. Eyni zamanda dil də müqəddəsdir, mənəviyyat göstəricisidir. Ona görə də dilə məhəbbəti Vətənə, Anaya məhəbbətlə müqayisə etmək daha doğrudur. Azərbaycan həm ümumbəşəri, həm də milli–mənəvi dəyərlərinə, o cümlədən tarixi müqəddəratında mütərəqqi rol oynamış islam dininin yüksək mənəvi-əxlaqi prinsiplərinə sadiq qaldığını dünyaya nümayiş etdirmişdir.

**Açar sözlər**: Azərbaycan, islam, ərəb, din, dil, mədəniyyət

Azərbaycanda İslam dininin yayılması ərəb işğalları ilə bağlıdır. Ərəb istilalarından əvvəl Cənubi Azərbaycan Sasanilər imperiyasının tərkibində olmuşdur. Şimali Azərbaycanda mövcud olan Qafqaz Albaniyası isə bu imperiyadan asılı vəziyyətə düşmüşdür. Ərəb fəthləri ərəfəsində Azərbaycanda dini mənzərə olduqca mürəkkəb idi. Bu mənzərəni köklü şəkildə dəyişərək azərbaycanlıları birləşdirəcək, onların milli şüurunun, mənəvi dəyərlərinin formalaşmasında əhəmiyyətli rol oynayacaq yeni dinin - islamın yayılmasına səbəb oldu. Bu tarixi proses 632-ci ildə Məhəmməd peyğəmbərin vəfatından sonra meydana gələn Ərəb xilafəti qısa müddətdə o dövrün ən güclü dövlətləri olan Bizans və Sasanilər imperiyaları üzərində böyük qələbələr qazandı. Bu qələbələrdən ruhlanan ərəblər yürüşlərini davam etdirərək get-gedə daha böyük ərazilər fəth etdilər. Mərzban İsfəndiyar 644-cü ildə ərəblərlə müqavilə bağlamağa məcbur oldu. Müqaviləyə görə, azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli, ərəb əsgərlərini bir gecə-gündüz evlərində saxlamalı idilər. Bunun müqabilində ərəblər yerli əhalinin dini inanclarına toxunmamağı, adət və məişətlərinə qarışmamağı öhdələrinə götürürdülər. Ərəb qoşunlarının bu fasiləsiz basqınlarına baxmayaraq, yalnız 90 illik kəskin mübarizədən sonra xilafət Azərbaycanın istilasını başa çatdıra bildi. Ərəblərin aramsız hücumları ilə 651-ci ildə Sasanilər imperiyası süquta uğradı. Nəticədə

Cənubi Azərbaycan xilafətin tərkibinə qatıldı. Şimali Azərbaycan torpaqlarını əhatə edən Qafqaz Albaniyası isə alban hökmdarı Cavanşirin müdrik siyasəti sayəsində nisbi müstəqilliyini qoruya bildi. 705-ci ildə Qafqaz Albaniyası tamamilə müstəqilliyini itirərək xilafətin tərkibinə qatıldı. Azərbaycan torpaqlarında Ərəb xilafətinin hökmranlığının bərqərar olması barədə bəhs etdikdən sonra ərəblərin özləri ilə gətirdikləri yeni dinin islamın ölkəmizdə yayılma prosesi başladı. [3, s.5-9].

İslamın Azərbaycanda yayılmasına baxanda görürük ki, bu din atəşpərəstliyin və çoxtanrılı inancların hakim olduğu Cənubi Azərbaycanda, eləcə də Şimali Azərbaycanın düzənlik yerlərində sürətlə yayılırdı. Şimali Azərbaycanın dağlıq və dağətəyi bölgələrində, yəni xristianlığın yayıldığı regionlarda İslam dininin mövqeyi zəif idi. Bu onunla izah olunur ki, ərəblər işğal etdiyi Azərbaycanda "kitab əhli"nə, yəni "Tövrat", "Zəbur", "İncil" kimi müqəddəs kitabları qəbul edən yəhudi və xristianların etiqadlarına hörmətlə yanaşırdılar. Odur ki, xristianlıq ölkəmizin dağlıq və dağətəyi hissələrində öz mövcudluğunu qoruya bildi. Bu səbəbdən düzənlik ərazilərdə islam hakim dinə çevrildi. İslamın yayılma səbəbini təkcə müsəlmanların başqa dinlərin mənsublarına göstərdikləri münasibət kontekstində izah etmək də doğru deyildir. İslam dininin regionda uğur qazanması müxtəlif səbəblərlə bağlıdır. İslamın mənəvi-əxlaqi, tərbiyəvi üstünlüklərini və gələcəyini düzgün başa düşən, öz əmlakını və imtiyazını əlində saxlamağa çalışan hakim təbəqə bu dini tərəddüdsüz qəbul edirdi. Şəhər yoxsulları, kəndilər və əhalinin kasıb təbəqəsinin nümayəndələri islamı qəbul etdikdə güzəştlər əldə edirdilər. Buda yeni dinin sadə camaat arasında yayılmasına gətirib çıxarırdı.

Azərbaycanın görkəmli şərqşünas alimi Ziya Bünyadovun fikrincə, VIII əsrin əvvəllərində islam ölkəmizdə hakim dinə çevrilmişdir. İslamın yayılmasında müsəlman ibadət yerləri də böyük rol oynamışdır. Belə ki, ərəblər Azərbaycanın Ərdəbil, Marağa, Beyləqan, Bərzənd, Bərdə, Dərbənd, Naxçıvan və digər strateji cəhətdən əhəmiyyəti olan şəhərlərində hərbi dəstələr saxlayırdılar. Bu hərbi dəstələrin yerləşdiyi ərazilərdə isə mütləq məscid inşa edilirdi. Tarixi mənbələrə görə, Azərbaycanda ilk məscid Ərdəbildə ucaldılmışdır. Artıq X-XI əsrlərdə ölkəmizin bütün yaşayış məntəqələrində müsəlman ibadətgahları mövcud idi. Bununla da Azərbaycan xalqı islam sivilizasiyasına daxil oldu. Bu isə xalqımızın taleyində müsbət rol oynadı. İspaniyadan tutmuş Hindistanaqək uzanan Ərəb xilafətinin tərkibində müxtəlif xalqların birləşməsi zəngin ümumislam mədəniyyətinin meydana gəlməsinə gətirib çıxardı. Hətta VIII-XIV əsrlər "İslamın qızıl çağı" və ya "müsəlman intibahı" kimi tarixə düşdü. O vaxtlar dünyada ən böyük tədris ocaqları, tibb müəssisələri, elm mərkəzləri məhz islam aləmində fəaliyyət göstərir, müsəlman alimləri böyük kəşflərə imza atırdı. Həmin dövrlərdə islam dünyasında yaşanan tərəqqi Azərbaycanın qədim mədəniyyətinin inkişafına və daha da zənginləşməsinə səbəb olmuşdur. Azərbaycan xalqının özü də bu mədəniyyətin inkişafına böyük töhfələr vermiş, nəinki müsəlman aləminə, ümumən, bəşəriyyətə görkəmli alimlər, mədəniyyət və incəsənət xadimləri, mütəfəkkirlər bəxş etmişdir. Azərbaycan, sözün əsl mənasında, XI-XII əsrlərdə özünün intibah dövrünü yaşayırdı. O vaxtlar yaşayıb-yaratmış görkəmli azərbaycanlılar arasında bunların adlarını

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2024
Səh. 21-27
çəkmək mümkündür: filosoflar Əbülhəsən Bəhmənyar (993-1066) və Xətib Təbrizi (1030-1108), dövrün məşhur astronomu Fazil Fəridəddin Şirvani (XII əsr), şairlər Qətran Təbrizi (1010-1080), Fələki Şirvani (1108-1146), Əfzələddin Xaqani (1120-1199), dahi söz ustası Nizami Gəncəvi (1141-1209). Azərbaycan xalqı sonrakı dövrlərdə də islam dünyasına görkəmli şəxsiyyətlər bəxş etmişdir. XIII əsrdə ensiklopedik biliyə malik olan, 1259-cu ildə Azərbaycanın Marağa şəhərində dövrün ən böyük rəsədxanasını yaradan görkəmli alim Nəsirəddin Tusi (1201- 1274) bunun bariz nümunəsidir. Azərbaycanda İslamın tarixindən danışarkən mütləq çar Rusiyası dövrünü də qeyd etmək lazımdır. Çünki XIX əsrin əvvəllərində Qafqaz ərazisi, o cümlədən Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən istila edildikdən sonra çar hökuməti tərəfindən dini sahədə bir sıra tədbirlər həyata keçirildi. İlk növbədə, müsəlmanların dini həyatını nəzarətə götürmək məqsədilə ruhani idarələr təsis olundu. [4, s.13-21].

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra dini işlərin həllində şeyxülislamın və müftinin roluna diqqət artırıldı. Cümhuriyyət hökumətinin 1918-ci il 18 iyun tarixli qərarı ilə islam dininə aid məsələlərin Nazirlər Şurasında müzakirəsi zamanı şeyxülislama və müftiyə həlledici səs hüququ verilirdi. Fətəli xan Xoyskinin 2-ci hökumət kabinəsində Xalq Maarifı və Dini Etiqad Nazirliyi yaradıldı. Həmin nazirliyin şeyxülislama və müftiyə 1918-ci il 10 avqust tarixli müraciəti nəticəsində Şiə məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və Sünni məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi Tiflisdən Gəncəyə köçürüldü. Hər iki idarə rəhbərinin 1918-ci il 1 sentyabr tarixli qərarı ilə şiə və sünni ruhani idarələri birləşdirildi. Yeni yaradılan ruhani idarə "Məşyəxət-i islamiyyə" ("islam şeyxləri, ağsaqqalları, rəhbərləri, başçıları" mənasındadır) adlandırıldı. 28 aprel 1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğalı nəticəsində ölkədə sovet hakimiyyəti quruldu. Ateizm siyasəti yürüdən bolşevik-kommunist hakimiyyəti bütün dinlərlə, o cümlədən islamla mübarizə aparmış, nəticədə dini təsisatların fəaliyyəti dayandırılmış, "Məşyəxət-i islamiyyə" idarəsi ləğv olunmuş, müsəlman din xadimləri və alimləri təqiblərə məruz qalmış, ibadət yerləri və ziyarətgaların əksəriyyəti bağlanılmış və ya məhv edilmiş, məscidlər anbar və müəssisələrə çevrilmiş, müqəddəs kitablar yandırılmış, dini hər vasitə ilə unutdurmaq, insanları dini köklərindən ayrı salmaq yönündə ciddi-cəhdlə səylər göstərilmişdir. II Dünya müharibəsi illərində sovet hakimiyyətinin dinlə bağlı siyasətində müəyyən dəyişiklik baş verdi. Mövcud dini vəziyyətə nəzarəti effektiv həyata keçirmək, eləcə də ağır müharibə illərində dindar əhali arasında rəğbət qazanmaq üçün islahatlar aparıldı. Həmin dövrdə dini idarələrin formalaşdırılması labüd hesab edildi. Nəticədə, Qafqazdakı müsəlmanların dini həyatını tənzimləyəcək ruhani idarə bərpa edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 aprel 1944-cü il tarixli 17 saylı qərarı ilə mərkəzi Bakı şəhərində yerləşən Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi təsis olundu. 25-28 may 1944-cü ildə Bakıda Zaqafqaziya müsəlmanlarının I qurultayı keçirildi. 1989-cu ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin nəzdində Bakı İslam Mədrəsəsi təsis olundu. 1991-ci ildə həmin təhsil müəssisəsinin bazasında Bakı İslam İnstitutu yaradıldı. 1991-ci ildə

Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdikdən sonra ənənəvi islami dəyərlərə qayıdış prosesi başladı. Sovet hakimiyyəti illərində bağlanılmış müsəlman ibadət yerləri və ziyarətgahların fəaliyyəti bərpa olundu, respublikanın bütün bölgələrində yeni məscidlər inşa edildi. Müstəqillik dövründə Azərbaycanda islam dininin elmi əsaslarla öyrənilməsi və müvafiq təhsil müəssisələrinin formalaşdırılması üçün də münbit şərait yarandı. 1992-ci ildə Bakı Dövlət Universitetinin nəzdində İlahiyyat fakültəsi təsis olundu. 2018-ci ilin fevralın 9-da Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Respublikamızın müxtəlif bölgələrində islam dininin ehkamlarını öyrədən orta dini təhsil müəssiələri və dini icmalar açıldı. Faktlar onu göstərir ki, müasir Azərbaycanda ənənəvi islami dəyərlərin qorunub-saxlanılması və yaşadılması üçün dövlət tərəfindən geniş imkanlar yaradılmışdır. İslam dünyası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın ilk üzv olduğu beynəlxalq qurumdur. Bakı şəhərinin 2009-cu ildə İSESKO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan olunması, 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz Naxçıvanın layiq görülməsi bunun bariz nümunəsidir. Azərbaycan dövlətinin müsəlman aləmində sülh və birliyin bərqərar olması sahəsində həyata keçirdiyi mühüm təşəbbüs və tədbirlərə nümunə kimi Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsini və 12-22 may 2017-ci ildə respublikamızın paytaxtında "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsini göstərmək olar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması da islam həmrəyliyinin möhkəmlənməsi işinə öz töhfəsini vermişdir. "Multikulturalizm ili" çərçivəsində 15 yanvar 2016-cı ildə Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar bir araya gələrək vahid məkanda cümə namazı qılmışlar. "Vəhdət namazı" adlandırılan bu dini mərasimin yerinə yetirilməsi olduqca böyük tarixi əhəmiyyət daşıyır. Müasir dünyada tolerantlıq və multikulturalizmin əsas mərkəzlərindən biri hesab olunan Azərbaycanda vəhdət namazının qılınması və daha sonra bu ibadətin ənənə halına çevrilərək ölkəmizin digər məscidlərində yerinə yetirilməsi, əslində, xalqımızın dünyaya verdiyi bir sülh və həmrəylik mesajıdır. Vəhdət namazının ilk dəfə Heydər məscidində qılınması isə rəmzi məna daşıyır. Çünki məhz ulu öndər Heydər Əliyev Azərbaycanda tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan bu gün də müsəlman aləmində mühüm mövqe tutur. Təsadüfi deyildir ki, respublikamızın suverenliyinin əsas atributlarından olan Dövlət bayrağımızın üç rəngindən biri, yəni yaşıl rəng, Azərbaycan xalqının islam sivilizasiyasına mənsubluğunu ifadə edir. [5, s.183–195].

Bir milləti digərlərindən fərqləndirən və onların içində əriyib yox olmasının qarşısını alan həmin millətin özünəməxsus milli-mənəvi dəyərləridir. Bu dəyərlər din və dil, tarixdən miras qalmış mədəni-mənəvi irs və sairədir. Hər bir etnosun milli

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 21-27*
kimliyinin və varlğının qorunmasının təml daşlarından biri də dildir. İnsan yeganə varlıqdır ki, dil ünsiyyətindən istifadə edərək bugünkü inkişaf səviyyəsinə gəlib çatmışdır. Bəzi dillər tarixin çətinliklərindən keçə bilməyərək itib batmışdır. Görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərli deyirdi ki, əgər bir xalqın bütün maddi və mənəvi irsini əlindən alsan, ancaq ana dilinə toxunmasan, həmin millət yox olmaz. O, az müddət sonra yenidən ayağa qalxar. Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonar digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan ana dilimizin nüfuzunun artırılması istiqamətində də məqsədyönlü və ardıcıl iş aparmağa başladı. Onun ana dilimizin saflığının qorunması, dilimizə hörmətlə yanaşmağın vacibliyi istiqamətində apardığı mübarizə xalqın və dilin tarixində xüsusi səhifədir. 1993-cü ildən sonra Heydər Əliyev dilimizin qorunması, inkişaf etdirilməsi respublikamızın bütün idarə və təşkilatlarında dövlət dili kimi tətbiq edilməsi uğrunda əzmkar fəaliyyət və qətiyyət nümayiş etdirdi. Onun 18 iyul 2001-ci il tarixli Fərmanı Azərbaycan dilinin tarixinə bəxş etdiyi ən parlaq səhifə idi. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində bu barədə deyirdi:"Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdırlar. Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır". [4, s.13-21].

Ərəblərin Azərbaycanda hökmranlığı, islam dininin bu bölgədə yayılması ərəb dilinin Azərbaycan dilinə güclü təsir etməsinə səbəb olmuşdur. İslam dininin Azərbaycan dilinə təsiri zamanı söz bazamız zənginləşmişdir. VII-IX əsrlərdə Azərbaycanda yazı ərəb dilində olmuşdur. Müasir ərəb dilinin lüğət tərkibi klassik ərəb dilinin tərkibindəki sözlərin atılması və neologizmlərin yaranması ilə fərqlənir. Yeni terminlərin yaranmasında alınma sözlərdən deyil, əsasən ərəb mənşəli söz köklərindən istifadə olunmuşdur. Ərəb dilinin söz yaranışında əsas baza rolunu fel kökləri oynayır. Bu dövlətin rəsmi dili isə "Quranın" nazil olduğu qureyş ləhcəsi əsasında yaranmışdır. Bu baxımdan ərəb dili çox məhsuldar dildir. Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir ziyalı ərəb bu dildə istənilən ölkənin mətbu əsərlərini oxuyub başa düşə bilər. Lakin ərəb mənşəli sözlərin bir qismi dilimizin lüğət tərkibindən çıxmış, bir qismi isə "vətəndaşlıq hüququ" qazanmışdır. Ümumxalq danışıq dilində işlədilən ərəb mənşəli sözlər artıq Azərbaycan xalqının dilinə hopmuş və doğmalaşmışdır. Bu sözlər artıq forma və məzmunca Azərbaycan dilinin qayda-qanunlarına tabe edilmişdir. VII əsrdən başlayaraq XX əsrin əvvəllərinədək ərəb kəlmələri azərbaycanlı ədiblərin əsərlərində özünəməxsus yer tutmuşlar. Xüsusən, Quranla bağlı sözlər, ifadələr, ayələr, daha geniş vüsət tapmışdır. Öz möcüzəsi ilə bütün şərq ədəbiyyatını valeh etmiş bu müqəddəs kitab Azərbaycan ədəbiyyatını özünə məftun etmişdir. Ərəb dilini, Quranı mükəmməl bilən, islam dininə yaxından bələd olan bu şairlır öz əsərlərində Qurandan bolluca sitat gətirmələri ilə bərabər azərbaycan dilinə siraət etmiş ayrı-ayrı ərəb mənşəli sözlər və söz birləşmələrindən kifayət qədər istifadə etmişlər. Azərbaycan dilinin lüğət tərkibində xeyli ərəb sözləri olduğu kimi, ərəb dilinin lüğət tərkibində də Azərbaycan dilindən alınmış çoxlu söz və ifadələr vardır. Bir çox ərəblərin Azərbaycanın müxtəlif əyalətlərində

məskunlaşmaları, türklərin ərəb qoşunlarının tərkibinə cəlb edilməsi, onların əmirlik və qoşun başçılığı kimi yüksək vəzifələri tutmaları xilafət daxilində elmin və mədəniyyətin müxtəlif sahələrindəki uğurlu fəaliyyətləri türk xalqları ilə ərəblərin qarşılıqlı əlaqəsinin inkişafının göstəricisi idi. XIII-XIV əsrlərdən başlayaraq ərəb dili Azərbaycandakı nüfuzunu get-gedə itirir, XVI əsrdə isə Azərbaycan dili artıq rəsmi dövlət dili, idarə və yazı dili olur. Leksikoloji baxımdan zəngin bazaya sahib olan və buna öz daxili imkanları hesabına nail olan ərəb dili Azərbaycan dilinin də söz bazasının zənginləşməsində xüsusi rol oynamışdır. [3, s.15-17].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:"Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının və müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq". Dil müqəddəsdir, mənəviyyat göstəricisidir. Ona görə də dilə məhəbbəti Vətənə, Anaya məhəbbətlə müqayisə etmək daha doğrudur. Milli dili yaşatmaq lazımdır. Dövlət nə lazımdırsa edir, ancaq cəmiyyətin fəallaşması da vacibdir. Bu gün Azərbaycan dilinin qorunması, onun daha da zənginləşdirilməsi hər birimizin qarşımızda duran başlıca vəzifələrindəndir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı. Bakı, 2013.
2. Ümummilli Lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı. "Azərbaycan" qəzeti, 18 iyun 2001-ci il.
3. İslam, tarix, fəlsəfə, ibadətlər. "İrşad" islam araşdırmaları mərkəzi. Bakı, Elm 1994
4. Azərbaycanda dini məsələ. Gündüz İsmayılov. Bakı, Tuna 2020. 282 səh.
5. Dini tolerantlıq. Səyyad Salahlı. Bakı, Tuna 2020. 238 səh.

**Jamil Shamil oglu Guliyev**

## THE SPREAD OF ISLAM IN AZERBAIJAN AND INFLUENCE ON THE AZERBAIJAN LANGUAGE

### Summary

It is difficult to imagine the spirituality and lifestyle of the Azerbaijani people without Islamic values. It is an undeniable historical fact that the religion of Islam plays an exceptional, unifying and progressive role in the destiny of our country and the destiny of our people. Islam, which has left a deep mark on the genetic memory of our people, had a strong impact on the formation of Azerbaijanis as a single people, on the formation of their national identity, statehood tradition, and culture. At the same time, language is also sacred, it is an indicator of spirituality. Therefore, it is more correct to compare the love of the language with the love of the Motherland.

Azerbaijan has demonstrated to the world that it remains faithful to both universal and national-spiritual values, including the high spiritual and moral principles of the Islamic religion, which has played a progressive role in its historical destiny.

**Key words:** Azerbaijan, islam, arabic, religion, language, culture

**Джамиль Шамиль оглу Кулиев**

## РАСПРОСТРАНЕНИЕ ИСЛАМА В АЗЕРБАЙДЖАНЕ И ВЛИЯНИЕ НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

**Резюме**

Трудно представить духовность и образ жизни азербайджанского народа без исламских ценностей. Неоспоримым историческим фактом является то, что религия ислам играет исключительную, объединяющую и прогрессивную роль в судьбе нашей страны и судьбе нашего народа. Ислам, оставивший глубокий след в генетической памяти нашего народа, оказал сильное влияние на становление азербайджанцев как единого народа, на формирование их национальной идентичности, традиций государственности, культуры. В то же время язык также священен, он является показателем духовности. Поэтому правильнее сравнивать любовь к языку с любовью к Родине. Азербайджан продемонстрировал всему миру, что он сохраняет верность как общечеловеческим, так и национально-духовным ценностям, в том числе высоким духовно-нравственным принципам исламской религии, сыгравшей прогрессивную роль в его исторической судьбе.

**Ключевые слова:** Азербайджан, ислам, араб, религия, язык, культура

**Rəyçilər: fil.ü.f.d. Mehman Əliyev**